

# İSTƏYİRƏM

(*Mənsur şeir*)

**Şəfa Yusifli**

***Xəzər Universiteti, Təbiət elmləri və mühəndisliyi fakültəsinin kimya və biologiya müəllimliyi ixtisası üzrə 2-ci kurs tələbəsi***

**İstəyirəm ki, şair qələmi olub dəli-dolu düşüncələri yazım, bir şairin qəlb sirdaşı olub ən gözəl sətirləri doldurum. Sevinc olmaq, gülüş olmaq istəyirəm. İstəyirəm ki, ağlayan körpələrin üzünə qonum, göz yaşlarını silim, qurudum, yanaqlarında təbəssüm yaradım. Şəfa adamı olmaq, sağalmayan dərdlərə dərman olmaq istəyirəm. Çox qəlbdə ümid yaradıb təbibtək yaralara məlhəm olmaq istəyirəm. Dolu gözlərdə yaş olub deyilməyən dərdləri danışmaq, kəlmələrin yükünü azaldıb daha ağır yüklərdən dəm vurmaq istəyirəm. Sadiqlik heykəli olmaq istəyirəm. İstəyirəm ki, xəyanətlə, xainliklə vuruşum. Dünyanı aldadan, içi başqa, çölü başqa insanlara düşmən olmaq istəyirəm. Acı həqiqət olub şirin yalanlarla boğuşmaq, "yalanın qırx günlük ömrü olub" qırx birinci gün həqiqətə qovuşmaq istəyirəm. İstəyirəm ki, yaralı xalqın qayğıkeşi kimi yarasını sarıyım, məmurların rüşvət kisəsi olub mal-mülkünə əcəl olum. Göy üzü qədər uca olub hər kəsə bir tərəzidə baxmaq, varlıya da, kasıba da eyni mənzərə olmaq istəyirəm.**

**Ataş olmaq, alov olmaq, buz tutmuş qəlbləri isitmək istəyirəm. Yalnızlara qoşulub birgə həyatın dadını anlatmaq istəyirəm. İstəyirəm ki, aydın güzgü olub gülənlə gülüm, ağlayanla ağlayım. Ölütək yaşayanların libasını çıxarmaq istəyirəm. İstəyirəm ki, aşiqtək sevgi mələyi olub təlatümsüz ürəklərə dolum. O qəlblərdə kəpənəktək yenidən qanadlanım. Leylinin Məcnunu olub ən gözəl dastanlarda oxunmaq, Məşuqun sevgisindən divanətək çöllərə sirdaş olmaq istəyirəm. Göy qurşağıtək yağışdan sonrakı sevinc olmaq, rəngbərəng bir çələng kimi səmalarda uçmaq istəyirəm. Yaz bənövşəsitək baharın ilk müjdəsi olmaq, çəməndə qırmızı lalətək günəşlə eyni dəmdə parlamaq istəyirəm. İstəyirəm ki, dağ olub, uca zirvə olub daim məğrur dayanım. Vaxtaşırı buludlarla buluşub uca zirvələrdə görünməz olum. Musiqi olub notların ahəngində duyulum, tarın sevgi daman simi olub yarın şeirlərində canlanım. İstəyirəm ki, ağacda yarpaq olub küləkdə də, yağışda da qopmayım. Həyata bağlanmaq üçün bir telin də yetdiyini bağırmaq istiyirəm. Coşqun dəniz dalğası olub qayalara çırpılmaq, köpük dolu ağ ləpələr olub qumlarla rəqs etmək istəyirəm.**

**İstəyirəm ki, əlisilahlı əsgər olub yurdum uğrunda can qoyum, üçrəngli, ay-ulduzlu bayraq olub daim vətən səmasında dalğalanım. Şəhidlik rəmzi, Xarıbülbül olum, Xanın səsində yenidən açım. Şəhadət günəşitək parlaq olub hər şəhid məzarında doğum...**

**İstəyirəm, istəyirəm ki, həyatı həyat kimi yaşayım.**

*Rubrikanı Xəzər Universiteti Dillər və ədəbiyyatlar departamentinin müəllimi Qardaşxan Əzizxanlı aparır.*